AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

*Əlyazması hüququnda*

**RÜSTƏMZADƏ İLKİN FARİZ OĞLU**

# AZƏRBAYCAN NAĞILLARININ SÜJET GÖSTƏRİCİSİ (NƏZƏRİ VƏ TƏCRÜBİ PROBLEMLƏR)

**10.01.09— Folklorşünaslıq**

**Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

AMEA İNFORMASİYA TEXNOLOGİYALARI İNSTİTUTU

**BAKI - 2007**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri namizədi
**Əfzələddin Dağbəyi oğlu Əsgərov**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
***Məhərrəm Allahqulu oğlu Cəfərli***

filologiya elmləri namizədi
***Rüstəm Kamal oğlu Rəsulov***

*Aparıcı müəssisə:* **Bakı Dövlət Universiteti**

Müdafiə «7» dekabr 2007-ci il saat 14-də, Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən № 01.201 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

*Ünvan:* Bakı şəhəri, İçərişəhər, Kiçik qala küçəsi31.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat «5» noyabr 2007-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
filologiya elmləri namizədi: **R.Z.Xəlilov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Yeni-yeni folklor toplularının çap olunaraq tədqiqatçıların istifadəsinə verilməsi oradakı materialın sistemləşdirilməsi zərurətini yaradır. Azərbaycan nağıllarının süjet göstəricisinin tərtib olunmasına ehtiyac da məhz belə bir zərurətdən doğur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan folklorudur. Tədqiqatın predmetinə elmi dəyəri olan mənbələrdə - nağıl toplularında, antologiyalarda, elmi-kütləvi nəşrlərdə, yarı folklor, yarı etnoqrafik səciyyəli kitablarda, dialektologiyaya həsr olunmuş araşdırmalarda, müxtəlif dərgilərdə çap olunmuş nağıllar daxildir. Bundan başqa, burada Azərbaycan xalqının yaşadığı tarixi ərazilərdən - Cənubi Azərbaycan, Qars, Kərkük, Göyçə, Borçalı və Dərbənddən toplanmış nağıl nümunələrindən, eləcə də Azərbaycan ərazisində yaşayan müxtəlif etnik qruplardan qeydə alınmış nağıllardan da (ciddi fərqlər olduğu üçün yəhudilərdən toplanmış nağıllar istisnadır) istifadə olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycan nağıllarının sistemləşdirilməsi tədqiqatın başlıca məqsədidir. Bu məqsədə çatmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- nağılların süjetlərə görə sistemləşdirilməsi təcrübəsi elmə ilk dəfə fin məktəbi tərəfindən gətirildiyi üçün bu məktəbin, onun nəzəri və praktik görüşlərinin, Aarne göstəricisinin yaranma səbəblərinin öyrənilməsi;
- Aarne-Tompson göstəricisi və bu göstərici əsasında tərtib olunmuş milli kataloqların öyrənilməsi, kataloqlaşdırma sahəsində mövcud beynəlxalq təcrübənin mənimsənilməsi;
- Aarne-Tompson sisteminin Azərbaycan nağıllarına tətbiqinin mümkünlüyünün müəyyənləşdirilməsi və bu kataloqun prinsiplərinə uyğun Azərbaycan nağıllarının süjet göstəricisinin tərtib edilməsi;
- bu sistemdən kənarda qalan bahadırlıq nağıllarının janr xüsusiyyətlərinin öyrənilməsi və onların kataloqda müstəqil qrup şəklində təmsil olunmasının səbəblərinin izah edilməsi;
- Azərbaycan nağıl süjetlərinin səciyyəsini vermək və nağıl repertuarının formalaşmasında "Min bir gecə", "Kəlilə və Dimnə" abidələrinin rolunun müəyyənləşdirilməsi.

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqatın metodoloji əsasında nağılların sistemləşdirilməsi sahəsində beynəlxalq aləmdə əldə edilmiş

nəzəri və təcrübi biliklər durur.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan nağıllarının süjet göstəricisinin tərtibi sahəsində bizdən əvvəl də müəyyən işlər görülmüşdür. Ayrı-ayrı topluların sonunda nağılların Aarne-Andreyev göstəricisinə uyğun süjet nömrəsi verilmişdir. Amma həmin göstəricilərin heç biri bütün nağıl materialını əhatə etməmiş, bu və ya digər topludakı materialla məhdudlaşmışdır. İlk dəfə olaraq bu dissertasiyada indiyə qədər çap olunmuş və elmi dəyəri olan bütün nağıl mətnləri sistemləşdirməyə cəlb olunmuşdur.

Azərbaycan folkloru bu bölgənin inzibati sərhədlərindən daha geniş bir ərazini əhatə edir. Buraya Azərbaycan Respublikasından qeydə alınmış nümunələrlə yanaşı, Dərbənd, Borçalı, Zəngəzur, Göyçə, İrəvan, Cənubi Azərbaycan, Qars və Kərkükdən toplanmış materiallar da daxildir. Həmin nümunələri göstəriciyə daxil etməklə biz Azərbaycan folklor coğrafiyasını tam əhatə etməyə və onun haqqında daha dolğun təəssürat yaratmağa çalışmışıq.

**Tədqiqatın nəzəri-praktik əhəmiyyəti.** Sistemləşdirmə mövcud materiallar arasındakı pərakəndəliyi aradan qaldırmaqla ondan istifadəni xeyli asanlaşdırır. Artıq tədqiqatçıların bu və ya digər bir süjeti axtarmaq üçün günlərlə vaxt sərf etmələrinə ehtiyac qalmayacaq. Çünki süjetin göstəricidəki nömrəsinin tapılması kifayət edir ki, araşdırıcılar onun hansı mənbələrdə çap olunduğu, nə kimi variantlarının mövcud olduğu, hansı süjetlərlə kontaminasiyaya girdiyi və hansı bölgələrdən qeydə alındığı haqqda məlumat əldə etmiş olsunlar. Bu da onlara vaxta qənaət etməyə və qısa zaman ərzində axtardıqları süjeti tapmağa imkan verir.

Türk xalqlarının nağıl repertuarındakı oxşar və fərqli cəhətlərin üzə çıxarılması, onların müqayisəli öyrənilməsi üçün bu gün müqayisəli süjet göstəricisinə böyük ehtiyac duyulur. Amma milli göstəricilər hazırlanmadan müqayisəli göstəricilərin tərtibi mümkün deyil. Bu baxımdan, Azərbaycan nağıllarının sistemləşdirilməsi gələcəkdə bu tip göstəricilərin hazırlanması üçün zəmin yaradır.

Süjet göstəricisi elmi araşdırmaların səviyyəsinin yüksəldilməsinə və tədqiqatçıların təsvirçilikdən xilas olmasına kömək edir. Əvvəllər tədqiqatçılar bu və ya digər bir nağıldan bəhs edərkən onun məzmununu uzun-uzadı təsvir etmək məcburiyyətində qalırdılar. Bu da elmi üslubu zəiflədir, ona yoruculuq gətirirdi. Bu tip göstəricilər ortada olandan sonra süjetin göstəricidəki nömrəsinin verilməsi kifayət edir ki, söhbətin hansı süjetdən getdiyi aydın olsun.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Türk xalqları folkloru" şöbəsində hazırlanmışdır. Dissertasiyanın məzmunu, elmi yenilik və nəticələrini əks etdirən məqalələr ayrı-ayrı elmi toplularda çap olunmuş, bu mövzu ilə əlaqədar aspirantların 2004-cü ildə keçirilmiş elmi konfransında məruzə ilə çıxış edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**"Nağılların sistemləşdirilməsi tarixi"** adlanan I fəsildə "fin məktəbi"nin nəzəri-praktik görüşlərindən, Aarne-Tompson göstəricisinin yaranma səbəblərindən, həm Azərbaycanda, həm də beynəlxalq aləmdə nağılların sistemləşdirilməsi sahəsindən görülən işlərdən bəhs olunur.

Fin məktəbinin nümayəndələri folklor nümunələrinin araşdırılması zamanı coğrafi-tarixi metoddan istifadə edirdilər. Bu metodun köməyi ilə onlar süjet və motivlərin coğrafi istiqamətdə inkişafını izləyir, onların əmələ gəldiyi məkan və zamanı tapmağa, forma xüsusiyyətlərini müəyyənləşdirməyə çalışırdılar. Bunun üçün, ilk növbədə, süjet və motivlərin bütün bölgələri və regionları təmsil edən variantlarının əldə edilməsi və onlar üzərində müqayisələrin aparılması tələb olunurdu. Amma folklor nümunələrinin pərakəndəliyi üzündən bu məktəbin nümayəndələri lazımi materialların toplanmasına xeyli vaxt sərf etməli olurdular. Bu səbəbdən fin məktəbinin fəaliyyəti dövründə nağılların sistemləşdirilməsinə artıq böyük bir ehtiyac yaranmışdı. Bunu nəzərə alan Beynəlxalq Folklorşünaslar Federasiyası bu işi nağıl janrı üzərində araşdırmaları ilə tanınan Antti Amatus Aarneyə həvalə edir.

A.Aarne əsasən fin nağıllarından, qismən də Qrimm qardaşlarının sehrli nağıllarından və S.Qrundviqin Danimarkadan topladığı nağıl nümunələrindən istifadə etməklə nağılların süjet göstəricisini hazırlayır və onu 1910-cu ildə Federasiyanın mətbu orqanı olan FFC (Folklore Fellow Communications) jurnalının III sayında alman dilində nəşr etdirir. "Göstərici"də nağıllar üç əsas qrupa bölünmüşdür:

I. Heyvanlar haqqında nağıllar.

II. Əsl nağıllar.

III. Zarafat və lətifələr.

Əsl nağıllar isə dörd yerə ayrılmışdır:

A. Sehrli nağıllar.

B. Dini nağıllar.

C. Novellavari nağıllar.

D. Axmaq şeytan haqqında nağıllar.

Qrupların özləri isə baş rolun iştirakçısına və mövzu əlamətlərinə görə yarımqruplara ayrılmışdır.

Kataloqda sistemləşdirmə süjetlər üzrə aparılmışdır. Nağıllar süjetlərə bölünmüş, hər süjet üçün müstəqil nömrə ayrılmışdır. Nömrənin qarşısında süjetin təsviri, təsvirin altında isə onun yerləşdiyi mənbələr göstərilmişdir. Kataloqda latın əlifbasına məxsus hərflərdən istifadə etməklə süjetlərin variant fərqləri də göstərilmişdir. Aarne "göstərici"ni tərtib edərkən hər qrup daxilində müəyyən sayda boş nömrələr buraxmışdı. Bu da "göstərici"nin strukturunu qoruyub saxlamaqla gələcəkdə yeni tapılan süjetlər hesabına onu daha da genişləndirməyə imkan verir.

A.Aarne göstəricisi, əsasən, Şimali Avropa nağıl süjetlərini əhatə edir. Doğrudur, 1928-ci ildə Stis Tompson Cənubi Avropadan toplanmış nağıl süjetlərini də daxil etməklə onu genişləndirilmiş şəkildə yenidən nəşr etdirmişdir. Bununla belə, bir çox xalqların nağıl süjetləri hələ də bu göstəricidən kənarda qalmışdır. Bu məsələ 1935-ci ildə Lundda keçirilən beynəlxalq konfransda da müzakirə mövzusu olmuşdur. Konfrans iştirakçıları bu fikirdə idilər ki, bir çox Asiya xalqlarının nağıl süjetlərini daxil etməklə "göstərici"nin əhatə dairəsini Hindistana qədər genişləndirmək mümkündür. Bunun üçün həm də lazımi zəmin yaranmışdır. Belə ki, Aarne "göstərici"si meydana çıxdıqdan sonra həmin sistem əsasında rus, ispan, island, latış, litva, isveç, alman, italyan, fransız, hind, çex, slovak, macar, rumın nağıl kataloqları nəşr olunmuş, yunan, Kanada, şotland və irland nağıl göstəriciləri isə çapa hazır vəziyyətə gətirilmişdir. Folklor arxivlərindəki vəziyyətə gəldikdə isə, keçən müddət ərzində toplanan yeni nümunələr hesabına arxivlərdəki materialların sayı da xeyli artmışdır. Həmin materiallardan istifadə etməklə "göstərici"nin genişləndirilməsi Amerikan folklorşünası S.Tompsona həvalə olunmuşdur.

S.Tompson milli kataloqlardan, ayrı-ayrı nağıl toplularındakı, arxivlərdəki materiallardan istifadə etməklə A.Aarne göstəricisini daha da genişləndirilmiş şəkildə 1961-ci ildə FFC jurnalının 184-cü sayında "The types of the folktale" adı altında çap etdirmişdir. Müqayisə üçün onu deyək ki, əgər A.Aarne variantı 66 səhifədən ibarət idisə, S.Tompson vari-

antının həcmi əlavə olunmuş süjetlər hesabına 588 səhifəyə çatmışdır.

S.Tompson Aarne sistemini genişləndirməklə yanaşı, həm də onu təkmilləşdirməyə çalışmışdır. İlk növbədə o, nağılların təsvir sistemində müəyyən dəyişikliklər etmişdir. Aarne göstəricisində süjetlərin qısa təsviri onlar haqqında daha dolğun informasiya əldə etməyə imkan vermir. Bunu nəzərə alan S.Tompson tərtib etdiyi göstəricidə süjetləri tərkib hissələrinə ayırmış, hər bir hissənin təsviri zamanı isə latın əlifbasındakı hərflərdən istifadə etməklə onların variant fərqlərini göstərmişdir. Bu da süjet haqqında dolğun informasiya verməklə yanaşı, həm də onun variant fərqlərini göstərmək üçün geniş imkanlar yaratmışdır. Bundan başqa, S.Tompson bəzi süjetlərin təsviri zamanı özünün altı cildlik "Motif İndex" kataloquna istinad etməklə onların motiv göstəricisini də vermişdir. Amma təəssüflər olsun ki, o, bu kimi yeniliklərdən bütün süjetlərdə deyil, daha uzun və mürəkkəb strukturlu süjetlərin təsviri zamanı istifadə etmişdir.

S.Tompsonun Aarne sisteminə gətirdiyi yeniliklər yuxarıda deyilənlərlə məhdudlaşmır. O, zəncirvari nağılları və təsnifata gəlməyən nağılları ayrıca qrup şəklində verməklə Aarne sistemindəki bölgünü bir qədər genişləndirmişdir. Bu kimi dəyişikliklərdən sonra həmin kataloq beynəlxalq aləmdə Aarne-Tompson göstəricisi kimi tanınmağa başlamışdır.

Aarne-Tompson göstəricisi nağılların süjetlər üzrə ilk sistemləşdirmə təcrübəsi olduğundan qüsurlardan da xali deyildir. "Göstərici"də yarımqruplara bölgü zamanı vahid prinsip gözlənilməmiş və təsnifat bir-birini inkar edən əlamətlər əsasında aparılmadığı üçün kəsişən bölgülər meydana çıxmışdır. Məsələn, Aarne-Tompson göstəricisində sehrli nağıllar 7 yarımqrupa bölünmüşdür: qeyri-adi düşmən (300-399), qeyri-adi ər və yaxud arvad (400-459), qeyri-adi tapşırıq (460-499), qeyri-adi köməkçi (500-559), qeyri-adi əşya (560-649), qeyri-adi güc və bilik (650-699), başqa möcüzəli motivlər (700-749). İlk baxışdan belə bir təəssürat yaranır ki, bölgü bir-birini inkar edən əlamətlər əsasında aparılıb. Əslində isə belə deyildir. Sehrli nağıllarla tanış olan hər bir şəxs çox gözəl bilir ki, qəhrəman qeyri-adi düşmən üzərində sehrli əşya və ya köməkçinin köməyi ilə qələbə çalır, çətin tapşırıqları onların köməyi ilə yerinə yetirir və s. V.Y.Propp göstəricinin bu tərəfinə diqqət yetirərək yazır: "Aarne-Tompson göstəricisi mövcud nağıl tipləri haqqında empirik məlumat kimi faydalıdır. Bununla belə, o, nağıl repertuarının tərkibi və xarakteri haqqında tamamilə yanlış və dolaşıq təsəvvür təlqin etdiyi üçün olduqca zərərlidir. Elementar məntiqi səhv - fəsillər bir-birini inkar

etməyən əlamətlərə görə müəyyənləşdirilmişdir. Bunun nəticəsində də kəsişən təsnifat alınmışdır, belə təsnifat isə elmdə faydasızdır[1]. Bu cür şərtiliklər üzündən süjetlərin göstəricidəki yerini təyin etmək çətinləşir və tədqiqatçılar axtardıqları süjeti tapa bilmək üçün bütün yarımqrupları nəzərdən keçirmək məcburiyyətində qalırlar.

"Göstərici"nin əsas qüsurlarından biri də süjetlərə görə təsnifat prinsipinin axıra qədər gözlənilməməsi idi. "Axmaq şeytan haqqında nağıllar" qrupunda, "Sadəlövh adamlar" və "Zarafatlar" yarımqrupunda təsnifat süjetlər üzrə deyil, ayrı-ayrı epizodlara və motivlərə görə aparılmışdır.

Aarne-Tompson sistemindən bəhs edərkən onun tətbiq dairəsinin müəyyən ərazi ilə məhdudlaşdığını qeyd etmək lazımdır. S.Tompson "Motif İndex"ə yazdığı ön sözdə bu sistemin Avropa, Şimali Afrika və Hindistana qədər olan ərazidə yaşayan xalqların nağıl süjetlərini kataloqlaşdırmağa imkan verdiyini, bu arealdan kənarda qalan Mərkəzi Afrika, Okean və Amerika xalqlarının nağıllarına isə onu tətbiq etməyin mümkün olmadığını qeyd edir[2]. S.Tompsonun altı cildlik "Şifahi xalq ədəbiyyatının motiv indeksi" kataloqu da bu sistemdən kənarda qalan xalqların şifahi irsini sistemləşdirmək zərurətindən yaranmışdı. Aarne-Tompson sisteminin məhdud ərazi daxilində tətbiq olunması folklorşünaslıqda müxtəlif səbəblərlə izah olunur. Y.Hautala bu hadisənin səbəbini ibtidai xalqlarda mif, nağıl və rəvayətlər arasında sərhədlərin qeyri-müəyyən olması, bu səbəbdən onları sivil xalqların nağılları ilə eyni sistemə uyğunlaşdırmağın mümkün olmaması ilə əlaqələndirir[3]. V.M.Jirmunski isə belə hesab edir ki, Avropa, Asiya və Şimali Afrika xalqları arasında tarixən mədəni-iqtisadi əlaqələrin olması nəticəsində ümumi xüsusiyyətləri olan mədəni areal formalaşmışdır. Bu areal daxilində yerləşən xalqların nağıl repertuarının eyni süjetlərdən təşkil olunması Aarne-Tompson sisteminin onlara tətbiqini mümkün edir. Araşdırıcının fikrincə, mədəni arealın sərhədinə doğru yönəldikcə fərqlər artır, sərhəddən kənara çıxdıqda isə bu sistem tamamilə faydasız olur. V.M.Jirmunski bu arealın sərhədlərini müəyyənləşdirməyə çalışarkən onun şərqdən İndoneziyanın

1 Пропп В.Я. Кумилятивная сказка / Фольклор и действительность. М.: Наука, 1976, с.241

2 Thompson S. Motiv-index of folk literature. vol. I-VI, Copenhagen, 1955-1958, p.3

3 Hautala J. Finnish folklore research. 1828-1918. Helsinki, 1968, p.149

Sulavesi rayonuna, cənubdan isə Sudana qədən uzandığını yazır[1].

Yuxarıda qeyd olunan qüsurlar üzündən "Göstərici" 1969-cu ildə keçirilən antropologiya və etnoqrafiya elmlərinin VII beynəlxalq konfransında da ciddi tənqidlərə məruz qalmışdır[2]. Konfrans iştirakçıları bu fikirdə idilər ki, "göstərici" müasir elmi tələblərə cavab vermir, ona görə də elmi auditoriyanı təmin edəcək daha mükəmməl bir sistemin yaradılmasına ehtiyac vardır.

Belə bir ehtiyac üzündən V.Y.Propp[3], B.P.Kerbelite[4] kimi tədiqatçılar tərəfindən yeni təsnifat prinsiplər irəli sürülmüş, amma onlar ya praktik tətbiqini tapmadığına, ya da bütün materialı əhatə etmədiyinə görə geniş yayıla bilmədilər. Buna baxmayaraq, bu cür prinsiplərin irəli sürülməsi gələcəkdə daha mükəmməl göstəricilərin yaradılması üçün zəmin yaradır.

Azərbaycan folklorşünaslığında süjetlərə görə sistemləşdirmə sahəsində elə bir ciddi araşdırma mövcud deyil. Yalnız ayrı-ayrı nağıl toplularının sonunda nağılların süjet göstəricisinin verilməsinə rast gəlinir. İlk dəfə belə bir göstərici A.B.Baqri və H.Zeynallının tərtib etdiyi "Azərbaycan türk nağılları" toplusunda verilmişdir[5]. Topluda hər bir nağılın Aarne-Andreyev və Bolte-Polivka göstəricilərinə uygun süjet nömrəsi verilmişdir.

1960-64-cü illərdə çap olunmuş beş cildlik "Azərbaycan nağılları" toplusunun I cildində M.H.Təhmasib nağılların Aarne-Andreyev göstəricisinə uyğun süjet nömrəsini vermişdir[6]. Göstəricidə qarşılığı verilmiş on iki nağıldan ancaq dördünün süjet nömrəsi düzgün müəyyənləşdirilmişdir. Qalan nağıllarda isə ciddi yanlışlığa yol verilmişdir. Görünür, elə bu səbəbdən toplunun sonrakı cildlərində süjet göstəricisinin verilməsi

---

1 Жирмунский В.М. К вопросу международных сказочных сюжетах / Историко-филологические исследования. Сб. статей к 70-летию академика Н.И.Конрада. М.: Наук, 1967, с.283-289

2 Труды VII международного конгресса антропологических и этнографических наук. Москва, 3-10 августа 1964 г., Том VI, 1969

3 Пропп В.Я. Морфология сказка. Изд. 2-е, М.: Наука, 1969, с.89

4 Кербелите Б.П. Методика описания структур и смысла сказок и некоторое ее возможности / Типология и взаимосвязи фольклора народов ССР. Поэтика и стилистика. М.: Наука, 1980, с.48-100 Yenə həmin müəllfin: Сюжетный тип вольшебной сказки / Фольклор: Образ и поэтическое слово в контексте. М.: Наука, 1984, с.203-260

5 Азербайджанские тюрские сказки /перевод, статъ и коммент.А.Багрия и Х.Зейналлы. М.: Akademiya, 668 с.

4 Azərbaycan nağılları: 5 cilddə, I c., / Tərtib edəni M.H.Təhmasib. Bakı: EA,1960

dayandırılmışdır.

Dissertasiyanın II fəsli **"Azərbaycan nağıllarının sistemləşdirilməsi problemləri"** adlanır. Bu fəslin birinci yarımfəslində **"Dini nağıllar"**dan bəhs olunur. Dini nağıllar beynəlxalq aləmdə müxtəlif adlar altında təqdim olunur. Aarne-Tompson göstəricisində bu qrup "religious tales" (dini nağıllar), Aarne-Andreyev və SUS kataloqlarında isə "əfsanəvi nağıllar" adı altında verilmişdir. "Əfsanəvi nağıllar" termini rus folklorşünaslığının daxili ənənələrindən irəli gəlir. Bir qədər də dəqiqləşdirsək, rus folklorşünaslığında xristianlıq dini ilə bağlı mətnlər əfsanə hesab olunur. Bu qrupa məxsus mətnlərdə də dini məzmun aparıcı rol oynadığı üçün Aarne-Andreyev, eləcə də SUS kataloqunda onlar "əfsanəvi nağıllar" kimi təqdim olunur. Azərbaycan folklorşünaslığında isə əfsanə termini tamamilə fərqli mətnlərə şamil olunduğuna görə, həmin terminin Azərbaycan nağıllarına tətbiq edilməsi dolaşıqlıq yaradır. Bunu nəzərə alaraq biz haqqında bəhs olunan qrupu Aarne-Tompson göstəricisindəki kimi dini nağıllar adlandırmağı daha məqsədəuyğun sayırıq.

Dini nağıllar islam dini ilə bağlı olub, islam ideologiyasının, bu dindən irəli gələn bir çox fikir və müddəaların xalq arasında, kütlə içərisində təbliğinə xidmət edir. Bu tip nağıllarda insanlara əliaçıqlıq, qonaqpərvərlik, böyük sözünə qulaq asmaq, naşükür olmamaq kimi yüksək mənəvi keyfiyyətlər aşılanır. Məsələn, "Çörəyin savabı" nağılında ac adamı doyuzdurmağın əhəmiyyətindən bəhs olunur. İbrahimxəlil peyğəmbər ondan dəvə istəyən qocaya üç dəvə hədiyyə edir, amma ona çörək təklif etməyi unudur. Qoca geri qayıdanda yolda çobana rast gəlir. Çoban qocanın ac olduğunu görüb yanındakı çörəyin hamısını ona verir. İbrahimxəlil peyğəmbər gecə yuxuda görür ki, çobanın verdiyi çörəyin savabı onun dəvələrindən daha ağır gəlir[1].

Dini nağılların əsas iştirakçıları peyğəmbərlər və dini şəxsiyyətlərdir. Bu nağıllarda Süleyman, İbrahimxəlil, Musa, Məhəmməd, Həzrət Əli kimi peyğəmbərlərin və dini şəxsiyyətlərin fəaliyyətindən, onların möcüzələrindən bəhs olunur. Peyğəmbərlər dini nağıllarda yalnız baş rolun iştirakçısı deyil, həm də Allahla insanlar arasında vasitəçilik edir. Məsələn, Musa peyğəmbər İra dağına Allahla söhbətləşməyə gedəndə yolda Allahın cəhənnəmi yaratmasına etiraz edən qoca ilə qarşılaşır. Cəhənnəmin

---

1 Azərbaycan folkloru antologiyası: 16 cilddə, XVI c., Ağdaş folkloru / Toplayıb tərtib edəni İ.Rüstəmzadə. Bakı: Səda, 2005, s.271

aradan götürülməsini istəyən qoca Musa peyğəmbərdən onun arzusunu Allaha çatdırmasını xahiş edir[1]. Başqa bir nağılda isə Süleyman peyğəmbər susuzluqdan əzab çəkən ahuların şikayətini Allaha çatdırır[2].

Əsas iştirakçılarının dini şəxsiyyətlər olması söyləyicidə bu tip mətnlərin gerçəkliyinə inam yaradır. Ağdaş rayonundan qeydə aldığımız bir nümunədə söyləyici mətnin gerçəkliyinə münasibətini belə ifadə edir: "İndi Allah-talaya qurban olum, rəvayətlərə baxanda görürsən ki, uyğun gəlir. İndi onun yarısı yalan olsa da, elə qanıram ki, otuz, otuz beş faizi həqiqətdi"[3]. Bəzən də söyləyici bu mətnlərin Qurandan gəldiyini zənn edir, bu da onda həmin mətnin gerçəkliyinə inam yaradır. "İndi ay oğul, dünya xali deyil. Gecəni gündüz eliyən varsa, deməli, həyatda nə deyilir hamısı var, Quranda nə deyilir hamısı var"[4]. "Bax, bu da gerçəkdi, çünki bunlar Quran kitabındadı"[5].

Söyləyici dini nağıllara münasibətdə çox vaxt nağıl deyil, rəvayət terminindən istifadə edir. Məsələn, "rəvayətdə belə şeylər çoxdu", "hə, belə bir rəvayət eşitmişəm", "bunnan da rəvayət qutardı", "belə bir rəvayət olub" və s. Bəzən də söyləyici rəvayət termininin qarşılığı olaraq əhvalat sözünü işlədir. Məsələn, "Süleymanın da əhvalatını belə eşitmişəm". Şifahi ənənədə nağıl termini yalan, uydurma xarakterli mətnlərə şamil edilir. Dini nağıllara münasibətdə söyləyicinin rəvayət, əhvalat terminindən istifadə etməsi həmin mətnin gerçəkliyinə inamdan irəli gəlir.

Sehrli nağıllardan fərqli olaraq, dini nağıllarda köməkçi rolunda sehrli əşya və varlıqlar deyil, peyğəmbərlər və dini şəxsiyyətlər çıxış edir. Qəhrəman çətin vəziyyətə düşdükdə peyğəmbərə üz tutur və ondan aldığı məsləhətə uyğun hərəkət edir. Məsələn, "Qazkeçməz körpüsü" nağılında arvadı sözünə baxmayan kişi Musa peyğəmbərə şikayət edir. Onun məsləhəti ilə Qazkeçməz körpüsünə gələn kişi qəribə bir mənzərənin şahidi olur. Görür ki, qatır tərslik edib körpüdən keçmək istəmir. Kişi qatır yiyələrinə məsləhət görür ki, biri heyvanın qabağından dartsın, o biri isə onu arxadan qamçılasın. Qamçı dəyən kimi qatır qaça-qaça körpüdən keçir.

---

1 Azərbaycan folkloru antologiyası: 16 cilddə, VI c., Ağdaş folkloru / Toplayıb tərtib edəni İ.Rüstəmzadə. Bakı: Səda, 2005, s.281

2 Azərbaycan folkloru antalogiyası: 16 cilddə, XII c.. Zəngəzur folkoru, B.: Səda, s.35

3 Azərbaycan folkloru antologiyası: 16 cilddə, XVI c., Ağdaş folkloru / Toplayıb tərtib edəni İ.Rüstəmzadə. Bakı: Səda, 2005, s.281

4 Yenə orada, s.293

5 Yenə orada, s.321

Bu hadisənin şahidi olan kişi başa düşür ki, Musa peyğəmbər bununla ona arvadını döyməyi məsləhət görür[1].

Birinci fəslin ikinci yarımfəsli **"Axmaq şeytan haqqında nağıllar"** adlanır. Sehrli nağıllarda olduğu kimi, bu qrupa məxsus nağıllarda da fantastik varlıqlar iştirak edir. Məsələn, "Qorxaq Əhməd" nağılında arvadı tərəfindən evdən qovulmuş qəhrəman yolda divlə qarşılaşır. "Cırtdan" (AA1180) nağılında isə meşəyə odun yığmağa getmiş uşaqlar yolu azıb divin yaşadığı məkana gəlirlər. Əgər sehrli nağıllarda qəhrəman fantastik varlıqlar üzərində köməkçinin və sehrli predmetlərin köməyi ilə qələbə çalırsa, burada o, hiylə və kələklə buna nail olur. "Qorxaq Əhməd" (AA1060) nağılında qəhrəman divlə gücünü sınayır. Daş əvəzinə yumurtanı sıxıb suyunu çıxardır, qoltuğunda gizlətdiyi yumurtanı vəz kimi qələmə verir və s. Div qəhrəmanı özündən güclü hesab edib ondan qorxur. Sehrli nağıllarda da fantastik varlıqların aldadılmasına rast gəlinir. Məsələn, AA400 nömrəli süjetdə qəhrəman itmiş arvadını axtararkən yolda atalarından miras qalmış əşyalar üstündə mübahisə edən divlərə rast gəlir. Qəhrəman daşı dağdan yumarlayır. Daşa birinci çatana papağı, ikinci çatana üzüyü, üçüncü çatana isə xalçanı verəcəyini deyir. Divlər daşın arxasınca gedəndə qəhrəman həmin əşyaları götürüb aradan çıxır. Sehrli nağıllarda hiylə və kələk epizodik səciyyə daşıyır və bütün süjet üçün xarakterik deyil. Axmaq şeytan haqqında nağıllarda isə, əksinə, bütöv süjet hiyləgərlik üzərində qurulur.

Axmaq şeytan haqqında nağılların bir çoxu sehrli nağılların yenidən mənalandırılması hesabına formalaşmışdır. Təbii ki, bu xüsusiyyət bütün sehrli nağıl süjetlərinə şamil edilmir. Onların içərisində yalnız axmaq şeytan haqqında nağılların ideya-estetik tələblərinə cavab verən süjetlər müəyyən struktur dəyişikliyinə uğrayaraq bu qrupa keçmişlər. "Boyu bir qarış" belə süjetlərdən biridir (AA 301).

Sehrli nağıl variantında əsilzadə, padşah ailəsindən çıxmış qəhrəman axmaq şeytan haqqında nağıllarda aşağı sosial təbəqəyə məxsus, yoxsul ailədən çıxmış şəxslə əvəzlənir. Artıq burada divi öldürüb qızı xilas edən şəxs şahzadə deyil, keçəl olur. Bu nağıllarda yalnız əsas qəhrəmanın deyil, demonik varlıqların da səciyyəsi dəyişir və onlar axmaq, sadəlövh varlıqlar kimi təsvir olunur. Divin özündən qat-qat zəif qəhrəman

1 Azərbaycan folkloru antologiyası: 16 cilddə, XVI c., Ağdaş folkloru / Toplayıb tərtib edəni İ.Rüstəmzadə. Bakı: Səda, 2005, s.274

tərəfindən aldadılması onu axmaq, gülünc vəziyyətə salır, bu da nağıla yumoristik çalar verir.

Sehrli nağıllarda divlərin canı onlardan kənarda yerləşir, bu da onlara ölməzlik, məğlubedilməzlik kefiyyəti verir. Axmaq şeytan haqqında nağıllarda isə divlərin onlardan kənarda canı yoxdur. Qəhrəman hiylə və kələklə onları öldürməyə nail olur. "Keçəl" nağılında qəhrəman divləri aldadıb onları qapının ağzında durmağa razı salır. Daha sonra damın üstündəki yeddi dəyirman daşını divlərin başına salıb onları öldürür[1].

Axmaq şeytan haqqında nağıllarla lətifələr arasında struktur yaxınlığı bir qrupdan digərinə süjet keçidini olduqca asanlaşdırır. Bunun nəticəsi olaraq, bir çox lətifə süjetləri axmaq şeytan haqqında nağılların əlamətləri əsasında yenidən formalaşaraq bu qrupun süjet tərkibinin zənginləşməsində müəyyən rol oynamışdır. "Uçan qaya" (AA1530) belə süjetlərdən biridir. Süjetdə təsvir olunur ki, keçəl çiynini qayanın altına verir. Özünü elə göstərir ki, guya uçan qayanı saxlayıb. Kişini onu əvəz etməyə razı salır, özü isə onun atını minib aradan çıxır. Qısa təsvirini verdiyimiz bu süjet axmaq şeytan haqqında nağıllara çevrildiyi zaman hadisələr insan və şeytan qarşıdurması əsasında təqdim olunur və aldadılan şeytan olur.

İkinci fəslin üçüncü yarımfəsli **"Zəncirvari nağıllar"** adlanır. İngilis dilində bu nağıllar "formula tales", rus dilində isə "kumilyativ nağıllar" adlandırılır. Terminlər müxtəlif olsa da, onlar bir-birinə yaxın mənanı ifadə edir. Tədqiqatçılar bu qrupu adlandırarkən çox vaxt onun struktur xüsusiyyətlərindən çıxış etmişlər. Kumilyativ nağılların strukturunun müəyyən fəaliyətin təkrarı üzərində qurulduğunu nəzərə alıb biz onları zəncirvari nağıllar adı altında təqdim edəcəyik.

Aarne-Andreyev göstəricisində zəncirvari nağıllar lətifələr qrupunda "Müxtəlif növ kumiylativ nağıllar" (AA*2015 I ) adı ilə verilmiş və bu qrupa məxsus bir neçə süjet müəyyənləşdirilmişdir. Şərqi slavyan xalqlarının müqayisəli süjet göstəricisində isə süjetlərin sayı daha da artırılmış, hətta tərtibçilər N.P.Andreyevin heyvanlar haqqında nağılların tərkibində verdiyi bir çox süjetləri də bura daxil etməklə onların sırasını daha da genişləndirmişlər.

1928-ci ildə S.Tompson Aarne sistemini genişləndirilmiş və təkmilləşdirilmiş şəkildə yenidən nəşrə hazırladığı zaman zəncirvari nağılları

---

1 Azərbaycan nağılları: 5 cilddə, IV c., / Toplayıb tərtib edəni N.Seyidov. Bakı: Azərb. EA, 1963, s.192

göstəricidə ayrıca qrup şəklində vermişdir. O, kataloqda bu qrup üçün 200-ə yaxın (2000-2199) nömrə ayırsa da, onlardan ancaq 22-ni doldura bilmişdir. Göstəricinin 1961-ci ildəki yeni nəşri zamanı isə nəzərdə tutulmuş nömrələrin böyük əksəriyyəti doldurulmuşdur. Amma bu qrup haqqında aydın təsəvvürün olmaması, kompozisiya xüsusiyyətlərinin tam öyrənilməməsi onun süjet tərkibinin müəyyənləşdirilməsi zamanı bir sıra yanlışlığa yol verilməsinə səbəb olmuşdur. Belə ki, zəncirvari nağıllara aid bir çox süjetlər digər qrupların tərkibində verilmiş və ya əksinə, bu qrupa aidiyyatı olmayan süjetlər zəncirvari nağıllara daxil edilmişdir.

Rus folklorşünaslığında zəncirvari nağıllar ilk dəfə V.Y.Proppun "Kumilyativ nağıllar" adlı məqaləsində müstəqil qrup kimi araşdırmaya cəlb olunmuşdur[1]. Daha sonra E.A.Kostyuxin heyvanlar haqqında nağılların tip və formalarından bəhs edərkən zəncirvari nağıllara da toxunmuş, onların kompozisiya xüsusiyyətlərindən bəhs etmişdir[2]. Hər iki araşdırıcı məhz struktur xüsusiyyətlərindən çıxış edərək bu qrupu digər nağıllardan fərqləndirməyə çalışmışdır. E.A.Kostyuxinə görə, zəncirvari nağıllar heyvanlar haqqında nağılların sadələşdirilməsi və uşaq auditoriyasına uyğunlaşdırılması nəticəsində yaranmışdır. Süjetlərin təfsilatdan uzaqlaşması, təhkiyə hissəsinin mümkün qədər qısaldılması, statik elementlərin kənarlaşdırılması nağıla dinamiklik gətirmiş və onu dialoqlara çevirmişdir[3].

Zəncirvari nağılların strukturu müəyyən bir fəaliyyətin təkrarı üzərində qurulur və bu sıralanma zəncirləməni yaradan səbəbin aradan qaldırılmasına qədər davam edir. Bu tip nağıllarda zəncirləməni yaradan əsas səbəblərdən biri əşyaların dəyişdirilməsidir. Dəyişmə ya azalan, ya da artan istiqamətdə aparılır. Artan istiqamətdə aparılan dəyişmə zamanı hər dəfə əldə edilən əşyanın dəyəri bir qədər artır. "Cik-cik xanım" nağılında sərçənin ayağına tikan batır. Sərçə tikanı qarıya verib çörək alır, çörəyi çobana verib qoyun alır, qoyunu toy yiyəsinə verib gəlin alır, gəlini aşığa verib saz alır. Digər zəncirvari nağıllarda olduğu kimi, burada da nağıl şən qəza ilə tamamlanır. Sərçə qoz ağacının altında oturub saz çalarkən başına qoz düşür (AT1655). "Dəyişmə" (AA1410) nağılında isə zəncirləmə azalan istiqamətdə gedir və hər yeni həlqə qoşulduqda əldə edilən əşyanın

1 Пропп В.Я. Кумилятивная сказка / Фольклор и действительность. М.: Наука, 1976, с.241-260

2 Костюхин Е.А. Типы и формы животного эпоса. М.:Наука, 1987, с.98

3 Yenə orada. s.98

dəyəri azalır. Kəndli bazara satmağa inək aparır. İnəyi keçiyə, keçini qaza, qazı arpaya və s. dəyişir və evə bir torba turşu ilə qayıdır.

Bəzi nağıllarda isə zəncirləmə şikayət üzərində qurulur. "Milçək" nağılında milçəyin qarnı qaratikan koluna ilişib cırılır. O, koldan inəyə, inəkdən qurda, qurddan ovçuya, ovçudan qarıya şikayət edir. Qarının onun xahişini yerinə yetirməsi ilə zəncirləmə bu səfər əks istiqamətdə inkişaf edir və nağıl kolun milçəyin qarnını tikməsi ilə tamamlanır.

V.Y.Propp kompozisiya xüsusiyyətlərinə görə zəncirvari nağılları iki qrupa ayırırdı: sintaktik həlqələrin təkrarı üzərində qurulan formulvari zəncirləmələr və eyni, lakin müxtəlif formalı epik həlqələrin təkrarı üzərində qurulan epik zəncirləmələr. Birinci qrupa məxsus nağıllarda hər yeni həlqə qoşulduqda əvvəlki həlqəyə məxsus sintaktik vahidlər təkrarlanır. "Bit və birə", "Buz və qarı" nağılları buna misal ola bilər. İkinci qrupa məxsus nağıllarda isə, zəncirləmələr daha təfsilatlı və sintaktik cəhətdən fərqli epik lövhələr üzərində qurulur. "Dəyişmə", "Tülkü, tülkü, tünbəki" və s. nağıllar bu qrupa daxildir.

Birinci fəslin dördüncü yarımfəsli **"Bahadırlıq nağılları"** adlanır. Azərbaycan folklorşünaslığında bahadırlıq nağılları müstəqil qrup kimi qəbul olunmasa da, sehrli nağıl qəhrəmanına həsr olunmuş araşdırmalarda bahadır obrazına və ona məxsus xüsusiyyətlərə geniş yer verilmişdir. R.Xəlilov "Azərbaycan və ərəb nağıllarında qəhrəman obrazları" adlı dissertasiyasında bahadırlıq nağıllarının qeyri-adi doğuluşa, qəhrəmanın şəxsiyyətinin, zahiri görünüşünün və fiziki gücünün daha ətraflı təsvir olunmasına görə sehrli nağıllardan fərqləndiyini yazır[1]. Ə.Əsgərov da "Azərbaycan sehrli nağıllarında qəhrəman" adlı araşdırmasında bahadırlıq nağıllarının həm strukturuna, həm də qəhrəmanın xarakterinə görə V.Y.Proppun sehrli nağıllar üçün müəyyənləşdirdiyi sxemdən fərqləndiyini qeyd edir. Belə ki, V.Y.Proppun sxemində köməkçinin alınma sı ilə qəhrəman passivləşir, köməkçi onun əvəzindən fəaliyyət göstərirsə, bahadırlıq nağıllarında köməkçinin möcüzəli doğuluş motivi ilə əvəzlənməsi qəhrəmanın aktiv fəaliyyət göstərməsinə səbəb olur[1]. Hər iki araşdırmada tədqiqatçıların bahadırlıq terminindən qaçmaları və bu nağıllara münasibətdə "sehrli-qəhrəmanlıq" terminindən istifadə etmələri

1 Халилов Р. Образы героев Азербайджанских и арабских вольшебных сказок: Дис...канд.филол.наук. Баку, 1988, с.104

2 Əsgər Ə. Azərbaycan sehrli nağıllarında qəhrəman (səciyyəsi və mənşəyi): Filol.elm.nam. ... dis. Bakı, 1993, s.94

diqqəti cəlb edir. Ə.Əsgərov bunun səbəbini bahadırlıq termininin çoxmənalılığı və onun müxtəlif səciyyəli epik əsərlərə şamil edilməsi ilə izah edir[1]. Sehrli-qəhrəmanlıq termini folklorşünaslıqda daha çox özündə hər iki qrupa məxsus xüsusiyyətləri birləşdirən 300, 301, 315, 550, 551 nömrəli süjetlərə şamil edilir[2]. Aktiv qəhrəman tipini təmsil etmələri, bahadırın qarşıya qoyulan məqsədə fiziki gücü hesabına çatması, hətta köməkçinin əldə edilməsində də fiziki gücdən istifadə olunması onları bahadırlıq nağıllarına yaxınlaşdırır. Bununla belə, onlar V.Y.Proppun sehrli nağıllar üçün müəyyənləşdirdiyi kompozisiya xüsusiyyətləri əsasında formalaşırlar. Hər iki qrupa məxsus xüsusiyyətləri özündə birləşdirdiyinə görə həmin nağıllar sehrli-qəhrəmanlıq nağılları kimi tanınmışdır. Bahadırlıq nağılları isə belə aralıq mövqeyə malik deyil. Onlar həm qəhrəmanın tipinə, həm də kompozisiya xüsusiyyətlərinə görə sehrli nağıllardan fərqlənirlər. Ona görə də qeyd olunan termini bu nağıllara şamil etmək məqsədəuyğun deyil.

Bahadırlıq nağıllarında qəhrəman kiçik yaşlarında ikən mifoloji varlıqların himayəsi altında böyüyür. Məsələn, "Siman" nağılında rəmmal rəiyyət içindən doğulacaq bir oğlan uşağının Şah Dəşgüvarı taxtdan salacağını xəbər verir. Şah onu gözləyən təhlükənin qarşısını almaq üçün yeni doğulan oğlan uşaqlarının, o cümlədən bağbanın oğlunun öldürülməsini əmr edir. Keşikçilərin uşağa rəhmi gəlir və onu bir ağacın altına atırlar. Simruq quşu uşağı tapıb öz yuvasına gətirir, onu balaları ilə bir yerdə böyüdür[3]. "Ağ quş" nağılında isə qəhrəman şirin himayəsində böyüyür. Nağılda təsvir olunur ki, padşahı öldürüb taxt-tacı ələ keçirən vəzir onun arvadını və yeni doğulmuş uşağını da öldürmək istəyir. Padşahın arvadı övladının ələ keçməməsi üçün onu dərəyə atır. Uşaq sağ qalır və onu tapan şirin himayəsi altında böyüyür[4]. Bəzi nağıllarda isə qəhrəman kiçik yaşlarında ikən demonik varlıqlar tərəfindən oğurlanır. Məsələn, "Kəlləgöz" nağılında bağa gəzməyə çıxan padşahın arvadı uşağı çarhovuzun üstünə qoyub özü gül dərməyə gedir. Bu vaxt bağa

---

1 Əsgər Ə. Azərbaycan sehrli nağıllarında qəhrəman (səciyyəsi və mənşəyi): Filol.elm.nam. ... dis. Bakı, 1993, s.94

2 Мелетинский Е.М., Неклюдов С.Ю., Новиков Е.С., Сегал Д.М. Проблемы структурного описания волшебной сказки / Труды по знаковым системам. вып.4, Тарту: ТГУ, 1969, с.98

3 Azərbaycan nağılları: 5 clddə, I c., / Tərtib edəni M.H.Təhmasib. Bakı, 1960, s.35

4 Yenə orada. s.113

bir aslan girir və uşağı götürüb qaçır[1]. Bahadırlıq nağıllarında fiziki güc qəhrəmana, adətən, onun mifoloji mənşəyindən keçir. Belə bir mənşədən məhrum bahadırlar isə sonradan həmin varlıqların himayəsi altında böyüməklə qeyri-adi gücə yiyələnirlər. Bu baxımdan, mifoloji varlıqlardan törəmə ilə onların himayəsi altında böyümə arasında elə bir funksional fərq yoxdur. Hər iki motiv bahadırın fiziki gücünü motivləşdirməyə xidmət edir.

Y.İ.Yudin rus bılinaları üzərində apardığı araşdırmaları zamanı yazır ki, bılina qəhrəmanları yürüş və səfərləri zamanı qeyri-adi predmetlərlə, qeyri-adi varlıqlarla, düşmən ordusu və bahadırlarla qarşılaşır. Onlar evi tərk edərkən qarşılarına bu cür varlıqlarla qarşılaşmaq məqsədi qoymadığından bu görüşlər və qarşılaşmalar təsadüfi hadisə kimi təsvir olunur[2]. Rus bılinalarına məxsus həmin kompozisiya elementlərinə bahadırlıq nağıllarında da təsadüf olunur. Uşaq oğrularını tapmaq məqsədi ilə şəhəri tərk edən Simanın Dəzivar padşahın yaşadığı məkana gəlib çıxması[3], Tapdığın oğurlanmış bacısını xilas etməyə gedərkən Ağ divin yaşadığı məkana gəlməsi[4] buna misal ola bilər. Qəhrəmanın səfərləri zamanı yolda qardaşı və ya nişanlısı oğurlanmış şəxslə qarşılaşması da təsadüfü yol görüşlərinə nümunədir. Məsələn, Siman şəkildə gördüyü qızın dalınca gedərkən yolda qardaşı tilsimə salınmış qoca ilə qarşılaşır[5]. Bəzən zərərə məruz qalmış şəxs qəhrəman haqqında qabaqcadan xəbər tutur. Məsələn, "Soltan İbrahim" nağılında əmisi qızına aşiq olmuş cavan abiddən Soltan İbrahim adlı bir nəfərin onu nişanlısına qovuşduracağını öyrənir. Qəhrəmanın yolu üstündə oturub onu gözləyir[6]. Təsadüfi yol görüşlərinin əsas süjet xətti ilə heç bir bağlılığı yoxdur. Onların nağıl strukturuna daxil edilməsi qəhrəmanın fəaliyyətini əsas məqsəddən uzaqlaşdırır. Bu da gedişlər arasındakı ierarxiyanın pozulmasına və nağılın bir-biri ilə əlaqəsi olmayan müxtəlif gedişlərin yığnağına çevrilməsinə səbəb olur.

---

1 Azərbaycan nağılları: 5 cilddə,V c., / Tərtib edəni Ə.Axundov. Bakı: Azərb. EA, 1960, s.227

2 Юдин Ю.И. Героические былины. М.: Наука, 1975, с.17

3 Azərbaycan nağılları: 5 cilddə, I c., / Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. EA, 1960, s.42

4 Azərbaycan nağılları: 5 cilddə, III c., / Tərtib edəni Ə.Axundov. Bakı: Azərb. EA, 1960, s.50

5 Azərbaycan nağılları: 5 cilddə, I c., / Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. EA, 1960, s.45

6 Azərbaycan nağılları: 5 cilddə, II c., / Tərtib edəni Ə.Axundov. Bakı: Azərb. EA, 1960, s.332

Bu cür gedişlərdən süjetdə bahadırın fiziki gücünü nümayiş etdirmək və onun qəhrəmanlıq cizgilərini qabartmaq məqsədi ilə istifadə olunur.

Nağıl qrupları biri-birindən kompozisiya xüsusiyyətləri ilə yanaşı, həm də qəhrəmanın tipinə görə fərqlənirlər. Sehrli nağıllarda qəhrəman qarşıya qoyulan məqsədə sehrli predmet və köməkçinin köməyi ilə, bahadırlıq nağıllarında isə fiziki gücü hesabına çatır. Sehrli nağıllarda köməkçinin qəhrəmanın əvəzindən fəaliyyət göstərməsi onun passivləşməsinə səbəb olur. V.Y.Propp "Nağılların morfologiyası" əsərində bu haqda yazır: Sehrli vasitə əldə etdikdən sonra və ya qəhrəmanın əlinə onun əmri ilə ona kömək edən canlı varlıq düşdükdən sonra onun tətbiqi gəlir: o heç nə etmir, köməkçi hər şeyi yerinə yetirir"[1]. Bahadırlıq nağıllarında isə əksinə, sehrli predmetlərin nağıl strukturundan çıxması və köməkçinin funksiyalarının bir hissəsini itirməsi qəhrəmanın aktivləşməsinə səbəb olur.

Sehrli nağıl personjları biri, birisi, padşah, div kimi ümumi ad altında təqdim olunan qeyri-müəyyən personajlardır. Hətta baş rolun iştirakçısı belə xüsusi ada sahib olsa da, bu, onu fərdi obraza çevirmir. Bahadırlıq nağıllarında isə əksinə, nəinki baş rolun iştirakçısı, hətta antoqonist personajlar belə xüsusi ada sahib fərdi obrazlardır. Söyləyici sehrli nağıllarda istənilən qəhrəmanı Məlikməmməd adı altında təqdim edə bilirsə,bahadırlıq nağıllarında bu, mümkün deyil. M.V.Novikov bunun səbəbini bahadırın daşıdığı adla onun xarakteri, nağılın məzmunu və poetik strukturu arasında bağlılığın olması ilə izah edir[2]. Doğrudan da, bahadırlıq nağıllarında adla obraz arasında müəyyən bir bağlılıq vardır. Daha dəqiq desək, ad obraza onun hansısa bir əlamətinə görə - ya doğulma vəziyyətinə, ya şəxsi keyfiyyətinə, ya da sosial vəziyyətinə görə verilir[3]. Məsələn, "Ağ quş" nağılında qəhərəmana şirin himayəsində böyüdüyünə[4],"Qaraqaş" nağılında bir cüt qara qaş şəklində doğulduğuna[5],"Tapdıq" nağılında isə yoldan tapıldığına görə[6] ad verilir. Adla obraz arasındakı bu cür bağlılıq obrazı fərdiləşdirir, onu konkret bir personaja çevirir.

---

1 Пропп В.Я. Морфология сказка. Изд. 2-е, М.: Наука, 1969, с.48

2 Новиков Н.В. Образы восточнославянской волщебной сказки. Л., Наука, 1974, с.27

3 Yenə orada. s.27

4 Azərbaycan nağılları: 5 cilddə, I c., / Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. EA, 1960, s.113

5 Yenə orada. s.17

6 Azərbaycan nağılları: 5 cilddə, III c., / Tərtib edəni Ə.Axundov. Bakı: Azərb. EA, 1960, s.39

Azərbaycan nağıllarının sistemlədirilməsi zamanı qarşılaşdığımız problemlərdən biri də kontaminasiyaların fərqləndirilməsidir. Aarne-Tompson sistemi və onun əsasında tərtib olunmuş kataloqlarda kontaminasiyaları müəyyənləşdirmək üçün heç bir prinsip verilməyib. Bu məsələnin həlli zamanı tərtibçilər çox vaxt şəxsi intuisiyadan çıxış etmişlər, bu da bir çox kontaminasiyaların müstəqil süjet kimi göstərilməsinə səbəb olmuşdur. Bu cür yanlışlıqlara yol verməmək, süjetlərin müəyyənləşdirilməsində daha dəqiqliyə nail olmaq üçün kontaminasiya hadisəsi, onun yaranma səbəbləri və süjetlərin kontaminasiya üsullarını öyrənməyə ehtiyac vardır. Dissertasiyanın **"Kontaminasiya hadisəsi"** adlanan beşinci yarımfəslində də yuxarıda qeyd olunan problemlərdən bəhs olunmuşdur.

Kontaminasiya dedikdə folklorşünaslıqda iki və daha artıq süjetin eyni nağıl daxilində birləşməsi nəzərdə tutulur. N.M.Vedernikova kontaminasiyanı söyləyicinin nağıllar üzərində gerçəkləşdirdiyi yaradıcılıq hadisəsi hesab edir. Onun fikrincə, söyləyici hər dəfə eyni auditoriya qarşısında çıxış etdiyindən onun repertuarı dinləyicilərə tanış olur. Bu da onları improvizasiyaya sövq edir. Onlar süjetə yeni elementlər və motivlər daxil etməklə tanış nağılı bir qədər dəyişilmiş şəkildə təqdim etməyə, bu yolla da dinləyicilərdə maraq oyatmağa çalışırlar. Kontaminasiya hadisəsini belə improvizasiya vasitələrindən biri hesab edən araşdırıcı yazır: "Nağılçı müəyyən bir nağılda məlum süjetləri birləşdirməklə tanış nağıl əsasında sanki yeni bir əsər yaradır. Dinləyici sevimli qəhrəmanları, ayrı-ayrı epizodları asanlıqla tanıyır, lakin bütövlükdə fəaliyyətin gözlənilməz inkişafı auditoriyada marağın artmasına səbəb olur"[1].

Fikrimizcə, kontaminasiyanın yaranmasını yalnız qeyd olunan səbəblə əlaqələndirmək bu hadisənin mahiyyətini tam dərk etməyə imkan vermir. Söyləyici kontaminasiya hadisəsindən həm də obrazı açmaq, ona məxsus xüsusiyyət və keyfiyyətləri daha qabarıq şəkildə vermək məqsədi ilə də istifadə edir. Məsələn, "İtmiş dəvə" (925**) süjeti Azərbaycanda qeydə alınmış beş variantdan üçündə "Ağıllı qardaşlar" (925A*) süjeti ilə kontaminasiya olunub. Birinci süjetdə qardaşlar dəvənin izinə görə onun əlamətlərini, ikinci süjetdə isə onlara verilən ətin it əti, şərabın insan qanı, padşahın isə aşbaz oğlu olduğunu tapırlar. Söyləyici hər iki süjeti eyni nağıl daxilində birləşdirməklə qardaşların

1 Ведерникова Н.М. Контаминация как творческий прием в волшебной сказке / Русский фольклор, т. XIII. Русская народная проза. Л.: Наука, 1972, с.160

bilicilik, uzaqgörənlik qabiliyətlərini üzə çıxarmağa çalışmışdır.

Aarne-Tompson sistemi və onun əsasında tərtib olunmuş kataloqlarda kontaminasiyaları müəyyənləşdirmək üçün heç bir prinsipin verilməməsi kontaminasiya əsasında təşkil olunmuş bir çox nağılların müstəqil süjet kimi göstərilməsinə səbəb olmuşdur. Bu cür yanlışlıqlara həmin sistem əsasında tərtib olunmuş kataloqlarda tez-tez rast gəlinir. Konkretlik üçün Aarne-Andreyev göstəricisində AA516 nömrəli süjetə diqqət yetirək: qəhrəman şəkildə gördüyü qıza aşiq olur; gəmi ilə onu qaçırdır; nökər qəhrəmanı gözləyən təhlükə haqqında eşidib onu xəbərdar edir; buna görə daşa dönür; qəhrəman öz uşağının qanı ilə onu dirildir. Bu nağıl "Göstərici"də vahid nömrə altında verilir, əslində isə, o, iki müstəqil süjetin birləşməsindən təşkil olunub. Bunlardan biri qəhrəmanın şəkildə gördüyü qıza aşiq olması və yoldaşının köməyi ilə onu qaçırtması, digəri isə nökərin qəhrəmanı qarşıda gözləyən təhlükədən xəbərdar etməsi və buna görə daşa dönməsidir. Bizim göstəricidə bu süjetlərdən birincisi 516, ikincisi 515*-ci nömrə altında verilmişdir. Eyni səhvə "Kürəkənlərin sınanması" (AA530B*) süjetin müəyyənləşdirilməsi zamanı da yol verilmişdir. Bu süjet Aarne-Andreyev göstəricisində "Qəbir üstündə keşik çəkmə" (AA 530A) süjetinin variantı kimi verilib. Halbuki bunlar tamamilə fərqli süjetlərdir. Sadəcə olaraq, onlara rus nağıllarında kontaminasiya halında rast gəlindiyindən tərtibçi onları eyni süjet kimi qiymətləndirmiş və "göstərici"yə vahid nömrə altında daxil etmişdir.

Bu cür yanlışlıqları aradan qaldırmaq və süjet göstəricilərinin tərtibi zamanı daha dəqiqliyə nail olmaq üçün müxtəlif tədqiqatçılar tərəfindən zaman-zaman müəyyən prinsiplər irəli sürülmüşdür. Belə tədqiqatçılardan biri də V.Y.Propp idi. V.Y.Propp kontaminasiyaları süjeti təşkil edən gedişlərə görə fərqləndirməyə çalışmışdır[1]. V.Y.Propp bu prinsipləri müəyyənləşdirərkən yalnız sehrli nağıl materialından çıxış etdiyindən həmin əlamətlər nağıllarda rast gəlinən bütün kontaminasiya hallarını təsbit etməyə imkan vermir.

N.M.Vedernikovaya görə, süjetlər müxtəlif səviyyəli motivlərin kombinasiyasından təşkil olunur. Süjet daxilində oynadığı roldan asılı olaraq, onlar mərkəzi və yardımçı motivlərə ayrılır. Mərkəzi motivlər ziddiyyətli və mürəkkəb mövzulu olur, süjetdəki ən dramatik və gərgin

---

1 Пропп В.Я. Морфология сказка. Изд. 2-е, М.: Наука, 1969, с.168

an onlarda təsvir olunur. Yardımçı motivlər isə, mərkəzi motiv üçün zəmin hazırlayır, onda təsvir olunan hadisəni aydınlaşdırmağa xidmət edir. Mərkəzi motivlər bir süjetə məxsus olduğu halda, yardımçı motivlər başqa süjetlərdə iştirak edə və ekvivalentləri ilə əvəzlənə bilirlər. Bundan çıxış edərək, N.M.Vedernikova kontaminasiyaları mərkəzi motivə görə fərqləndirməyi təklif edir. Belə ki, nağılda iki və daha artıq mərkəzi motivə rast gəlinməsini o, kontaminasiyanın əlaməti sayır[2].

N.M.Vedernikovanın irəli sürdüyü prinsipin praktik materiala tətbiq olunması üçün ilk növbədə nağılların motiv göstəricisinin hazırlanması və hər bir nağılın motiv tərkibinin üzə çıxarılması tələb olunur. Azərbaycan folklorşünaslığında bu işlər görülmədiyindən həmin prinsipdən faydalanmaq mümkün deyil.

**"Azərbaycan nağıllarının süjet tərkibi"** adlı III fəsildə Azərbaycan nağıllarının süjet tərkibi haqqında müəyyən təsəvvür yaratmağa çalışmışıq.

Azərbaycan nağıllarına məxsus 712 süjet müəyyən etmişik. Bunlardan 105-i heyvanlar haqqında nağıllara, 132-si sehrli nağıllara, 100-ü dini nağıllara, 190-ı novellavari nağıllara, 26-sı axmaq şeytan haqqında nağıllara, 133-ü lətifəvari nağıllara, 7-si zəncirvari nağıllara, 19-u isə bahadırlıq nağıllarına məxsus süjetlərdir. Süjetlərin qruplar üzrə sayı aşağıdakı cədvəldə əks olunmuşdur:

| Nağıl qrupları | Süjetlərin qruplar üzrə sayı | Qarşılığını tapdığımız süjetlər | Qarşılığını tapmadığımız süjetlər |
|---|---|---|---|
| I.Heyvanlar haqqında nağıllar.. | 105 | 65 | 40 |
| II. Əsl nağıllar | | | |
| a) Sehrli nağıllar....................... | 132 | 88 | 44 |
| b) Dini nağıllar......................... | 100 | 27 | 73 |
| c) Novellavari nağıllar ............. | 190 | 62 | 128 |
| d) Axmaq şeytan haqqında nağıllar | 26 | 21 | 5 |
| III. Lətifələr.............................. | 133 | 66 | 67 |
| IV. Zəncirvari nağıllar.............. | 7 | 2 | 5 |
| V. Bahadırlıq nağılları.............. | 19 | - | 19 |
| Cəmi....................................... | 712 | 331 | 381 |

1 Ведерникова Н.М. Контаминация как творческий прием в волшебной сказке / Русский фольклор, т. XIII. Русская народная проза. Л.: Наука, 1972, с.160

Azərbaycan nağılları arasında beynəlxalq süjetlər o qədər də böyük çəkiyə sahib deyil. Süjet repertuarının 46.5%-ni Aarne-Tompson göstəricisində qarşılığı olan, 53.5%-ni isə yeni süjetlər təşkil edir. Ən çox fərqliliyə dini və novellavari nağıllar qrupunda rast gəlinir. Dini nağılların süjet tərkibinin 73%-ni, novellavari nağılların 67%-ni, sehrli nağılların 33.3%-ni, heyvanlar haqqında nağılların 38%-ni, axmaq şeytan haqqında nağılların 19.2%-ni, lətifəvari nağılların isə 50.3%-ni beynəlxalq kataloqda qarşılığı olmayan süjetlər təşkil edir. Beynəlxalq süjetlərə ən çox axmaq şeytan haqqında nağıllar qrupunda rast gəlinir. Bu qrupun süjet tərkibinin 80.8%-ni, sehrli nağılların 66.7%-ni, heyvanlar haqqında nağılların 62.9%-ni, lətifəvari nağılların 49.6%-ni, novellavari nağılların 32.6%-ni, dini nağılların isə 27%-ni beynəlxalq süjetlər təşkil edir.

Cədvəldən göründüyü kimi, göstəricidə bütün qruplar eyni səviyyədə təmsil olunmayıb. Ən çox süjetlə novellavari nağıllar, lətifələr və sehrli nağıllar, ən az süjetlə isə zəncirvari nağıllar və bahadırlıq nağılları təmsil olunmuşdur. Qruplar arasındakı bu fərq, əslində, toplama işinin lazımi şəkildə təşkil olunmamasından, toplama ilə məşğul olan şəxslərin bütün qruplara eyni səviyyədə diqqət ayırmamasından irəli gəlir. Məsələn, heyvanlar haqqında nağıllar süjet tərkibinin zənginliyinə görə seçilən qruplardan biri olduğu halda, Azərbaycanda bu qrupa dair çox az sayda mətin qeydə alınıb. Dini nağıllara münasibətdə də oxşar vəziyyətlə qarşılaşırıq. Dini məzmun kəsb etmələri, əsas iştirakçılarının dini şəxsiyyətlər olması Sovet dövründə bu qrupun lazımi səviyyədə toplanmamasına səbəb olmuşdur.

"Göstərici"nin Azərbaycan nağıllarının süjet tərkibini tam əks etdirdiyini düşünmək yanlışlıq olardı. Bunu Azərbaycan və rus nağılları arasında apardığımız müqayisədən də görmək olar. Məsələn, ruslarda heyvanlar haqqında nağıllara dair 119, bizdə isə 105 süjet mövcuddur. Sehrli nağıllarda bu fərq daha çoxdur. Ruslarda bu qrupa məxsus 226 süjet olduğu halda, Azərbaycan nağıllarında cəmi 132 süjet mövcuddur. Yalnız novellavari nağıllarda bu nisbət bizim xeyrimizə dəyişir. Bizim tərtib etdiyimiz göstəricidə novellavari nağıllar 190 süjetlə, ruslarda isə bu qrup 137 süjetlə təmsil olunub. Süjetlərin ümumi sayına gəldikdə isə, burada vəziyyət daha acınacaqlıdır. 1226 süjetin qarşılığında Azərbaycanda yalnız 712 süjet mövcuddur. Süjetlərin sayları arasındakı bu fərq, qeyd etdiyimiz kimi, ilk növbədə toplama işinin zəif aparılmasından irəli gəlir. Bir çox bölgələrə indiyə qədər folklor ezamiyyətinin təşkil olun-

maması, toplamaya cəlb olunmuş bölgələrin isə kifayət qədər toplanılmaması qeydə alınan nümunələrin sayına təsir etmişdir. Həm ərazi, həm də əhali baxımından Şimaldan dəfələrlə böyük olan Cənubi Azərbaycan folklorunun toplanılmamasını nəzərə alsaq, onda şifahi ənənədə qeydə alınmamış nə qədər böyük sərvətin olduğunu təsəvvür etmək çətin deyil. Digər tərəfdən, radio, televiziya kimi informasiya vasitələrinin məişətə daxil olması nağılların auditoriyasını xeyli daraltmışdır. Nəticədə bir çox süjetlər yaşlı nəsildən yeni nəslə ötürülmədiyindən ya itib batmış, ya da unudularaq şifahi dövriyyədən çıxmışdır. Bu kimi amillər bizə Azərbaycan nağıllarının süjet tərkibini tam əks etdirməyə imkan vermir.

Azərbaycan nağıllarının süjet tərkibinə diqqət yetirdikdə burada şifahi ənənədən gələn süjetlərlə yanaşı, yazılı mənbələrdən, xüsusən də "Min bir gecə", "Kəlilə və Dimnə" abidələrindən alınmaların da xüsusi çəkiyə sahib olduğunu görmək olar. Kitab mənşəli nağılların timsalında biz folklor mətninin şifahi ənənədən kitaba, kitabdan isə şifahi ənənəyə qayıtması prosesinin şahidi oluruq. Təbii ki, şifahi ənənəyə qayıdan mətn şifahi mətnin qanunlarına uyğun inkişaf edir: variantlaşır, özünün bir çox motivlərini itirir, yerinə yeniləri cəlb olunur. Ümumiyyətlə, kitab mənşəli nağılların hamısında orijinalla müqayisə etdikdə az və ya çox dərəcədə, variantlılıq müşahidə olunur. Nümunə üçün Ə.Axundovun iki cildlik "Azərbaycan nağılları" toplusunda çap olunmuş "Məhərin nağılı"na diqqət yetirək. Həmin nağılın kitab variantı "Min bir gecə"nin VIII cildində "Pinəçi Mərufun nağılı" adı altında verilmişdir. Nağılın qısa məzmunu belədir: arvad ərinə şan balı ilə yağda qovrulmuş qara xurma almağı tapşırır; şan balı əvəzinə süzmə bal aldığına görə arvad ərini evdən qovur; kişi yağışdan qorunmaq üçün uçuq bir binaya sığınır, orada ifritəyə rast gəlir; ifritə onu çiyninə alıb Yəmən şəhərinə gətirir; burada o, öz həmyerlisi ilə qarşılaşır; onun məsləhəti ilə özünü tacir kimi qələmə verir; padşahın qızı ilə evlənir; içərisində sehrli üzük olan xəzinə tapır; vəzir üzüyü ələ keçirib onu və padşahı səhraya atdırır; padşahın qızı onları xilas edir.

Hər iki nağılda aşağıdakı variant fərqləri müşahidə olunur:

1. Kitab variantından fərqli olaraq, Ə.Axundov variantı təkərləmə ilə başlayır.

2. Kitab variantında arvad ərinə arı balından hazırlanmış kətə, Ə.Axundov variantında isə şan balı ilə yağda qovrulmuş qara xurma almağı tapşırır.

3. Kitab variantında pinəçi ifritəyə yağışdan qorunmaq üçün sığındığı binada, Ə.Axundov variantında isə meşədə gecələdiyi ağacın altında rast gəlir.

4. Ə.Axundov variantında nağıl vəzirin cəzalandırılması ilə tamamlanırsa, kitab variantında pinəçinin əvvəlki arvadının onu axtarıb tapması və üzüyü ondan oğurlamaq istəməsi ilə hadisələrin inkişafı davam edir.

Kitab variantında hadisələrin şifahi varianta nisbətən daha geniş və təfsilatlı olduğunun şahidi oluruq. Bunu yuxarıda müqayisəsini verdiyimiz nağılların timsalında da görmək olar. Belə ki, həmin nağılın kitab variantının həcmi əlli üç, Ə.Axundov variantının həcmi isə on bir səhifədən ibarətdir. Şübhəsiz ki, bu cür variant fərqləri şifahi ifa prosesində qazanılmış xüsusiyyətlərdir. Amma kitab mənşəli nağıllar şifahi ifa zamanı nə qədər variantlaşmaya məruz qalsalar da, orijinala məxsus cizgilərini tam itirmirlər. Əksər motivlər bir-biri ilə səsləşir, hətta personajlara verilən adlar belə orijinaldan yalnız fonetik fərqlərə görə seçilir. "Məhər" nağılının kitabdakı əsli ilə müqayisəsi bunu aydın şəkildə göstərir: Fatma - Fatimə, Əli - Xacə Əli. Personaj adları arasındakı bu cür oxşarlıq "Seyfəlmülk" nağılında da müşahidə olunur: Seyf-əl-mülk - Seyfəlmülk, Badi-əl-Camal - Bədiəlcamal, Asim ibn Səfvan - Səfqan, Fariz ibn Salih - Saleh, Şahyal padşah - Şahbal padşah.

Beləliklə, yalnız süjetlər arasındakı tipoloji oxşarlığa deyil, eyni zamanda personaj adları, obrazların nitqi və ifadələri arsındakı bənzərlik və yaxınlığa əsaslanaraq aşağıdakı nağılların "Min bir gecə" mənşəli olduğunu təxmin edirik: "İmam"[1], "Xacə Fəttax"[2], "Şəms-Qəmər"[3], "Seyfəlmülk"[4], "Məhərin nağılı"[5], "Halallıq"[6], "Halal ömür"[7], "İfritə"[8] və s.

---

1 Azərbaycan nağılları: 5 cilddə, I c., / Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. EA, 1960, s.291

2 Azərbaycan nağılları: 5 cilddə, II c., / Tərtib edəni Ə.Axundov. Bakı: Azərb. EA, 1960, s.178

3 Azərbaycan nağılları: 5 cilddə, III c., / Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. EA, 1960, s.5

4 Azərbaycan nağılları / Toplayanı və tərtib edəni Ə.Axundov. 2 cilddə, II c., Bakı: Azərbaycan dövlət nəşriyyatı, 1970, s.5

5 Yenə orada. s.82

6 Azərbaycan folkloru antologiyası: 16 cilddə, VI c., Şəki folkloru / Tərtib edəni H.Əbdülhəlimov. Bakı: Səda, 2002, s.175

7 Yenə orada. s.183

8 Şah Abbasın arvadı / Toplayanı F.Bayat, Bakı: Yazıçı, 1996, s.179

Alınma süjetlər çox vaxt şifahi ənənədə geniş yayıla bilmirlər, onlar ya hansısa bir söyləyicinin repertuarı üçün xarakterik olur, ya da dar bir ərazidə yayılmış olurlar. Bunu kitab mənşəli süjetlərin variantlarının sayından da görmək olar. Belə ki, bu abidəyə məxsus olduğunu müəyyən etdiyimiz on doqquz süjetdən on üçünə bir və ya iki variantda rast gəlinir.

Azərbaycanda heyvanlar haqqında nağılların zəif toplanılması "Kəlilə və Dimnən"nin şifahi ənənəyə təsirinin miqyasını müəyyənləşdirməyi olduqca çətinləşdirir. Bununla belə, toplanmış nümunələr arasında da bu abidədən alınmış kifayət qədər süjetlər mövcuddur. Həmin süjet lər bunlardır: "Aslan və dovşan" (92), "Yaxşılığa yamanlıq" (155), Xeyirxah heyvanlar" (160), "Qızılquş və xoruz" (223D**), "Kor dəvə" (240**), "Taylı tayını tapmasa" (278), "Günahsız qızılquş" (916A*) və s.

**"Nəticə"**də araşdırmadan doğan qənaətlər xatırladılır və tədqiqatın əsas müddəaları ümumiləşdirilir.

## Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı tezis və məqalələrində öz əksini tapmışdır:


1. Azərbaycan nağıllarının sistemləşdirilməsi. Azərbaycan Milli Elmlər Akademiyası Aspirantlarının Elmi Konfransının materialları. Bakı, "Elm nəşriyyatı", 2004, s.372-373

2. Aarne-Tompson kataloqunun nağılların sistemləşdirilməsində rolu. "Dədə Qorqud". Elmi-ədəbi toplu, Bakı, "Səda" nəşriyyatı, 2004, №2, s.98-104

3. Azərbaycan sehrli nağıllarının süjet göstəricisi. "Dədə Qorqud". Elmi-ədəbi toplu, Bakı, "Səda" nəşriyyatı, 2004, №3, s.98-109

4. Heyvanlar haqqında nağılların süjet göstəricisi. "Dədə Qorqud". Elmi-ədəbi toplu, Bakı, "Səda" nəşriyyatı, 2005, №1, s.112-126

5. Azərbaycan nağıllarının süjet tərkibi. Elmi axtarışlar, XXVI toplu, Bakı, "Səda" nəşriyyatı, 2006, s.107-112

6. Fin məktəbi. Elmi axtarışlar, XXVIII toplu, Bakı, "Səda" nəşriyyatı, 2006, s.20-23

7. Bahadırlıq nağıllarının kompozisiya xüsusiyyətləri. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Bakı: "Nurlan" nəşriyyatı, 2007 s.170-178

**I.F.RUSTAMZADE**

# THE PLOT INDEX OF THE AZERBAIJANI TALES (THEORETICAL AND PRACTICAL PROBLEMS)

The classification of tales in the Azerbaijani study of folklore has not been made up to present by the internal, but according to the exterior signs, some groups of this genre (for example, the religious tales, the heroic tales) were not reflected in the mentioned classifications. The main personages of the religious tales are the prophets and religious figures. Their goal is to propagandize the key dogmas and rules of Islamic religion amongst the wide mass.

Up to present, in the Azerbaijani study of folklore the heroic tales were reviewed as a kind of fairy tales, whereas this group is differed from the fairy tales by its compositional features. In the heroic tales the hero arrives at his goals owing to his physical strength. The physical strength of the hero is related with his demonic origin. But those heroes, who are deprived of such origin, gain the similar unbelievable force through training under the protection of demonic beings. In the fairy tales the hero is replaced by his assistant or the magical objects that change the hero into the passive observer. And in the heroic tales, the magic objects are excluded from the tale and the functions of assistants are narrowed, owing to which the hero becomes active.

In the course of investigation there was determined that the share of international plots in the repertory of the Azerbaijani tales is not too large. The international plots are only 46.5% of the tale repertory and the remained plots are original. The similar plots are met regularly in the tales on animals and in the fairy tales. The international plots in the mentioned groups are more than 60% of the plot composition. In the religious and novel tales this figure is less than 40%.

In the investigation there is matter on the literary books, such as, "The Thousand and One Nights", "Kalila and Dimna". There is noted that despite the majority of changes of the borrowed tales, the traces of originals are not lost. The majority of motives have something in common with original and there is observed similarity between names of personages. The borrowed tales of the verbal traditions are not spread out too large and their circle of distribution is restricted by repertories of several narrators.

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ ФОЛЬКЛОРА

*На правах рукописи*

РУСТАМЗАДЕ ИЛЬКИН ФАРИЗ оглы

# СЮЖЕТНЫЙ УКАЗАТЕЛЬ АЗЕРБАЙДЖАНСКИХ СКАЗОК (ТЕОРЕТИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ ПРОБЛЕМЫ)

10.01.09 – Фольклористика

А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой
степени кандидата филологических наук

БАКУ-2007